**UOT 48.41.45**
**https://doi.org/10.59849/2311-8482.2024.3.230**

**OQTAY ŞƏRİFOV***

# AZƏRBAYCAN XALQ MUSİQİSİ: MUĞAMLAR

*Təqdim olunan məqalədə, Azərbaycan Xalq musiqisi: mahnılar, milli rəqslər və əsasən Azərbaycan klassik muğamları, zərbi muğamlar haqqında-onların ifa tərzi, oxşar və fərqli xüsusiyyətləri haqqında məlumat veri lmişdir.*

***Açar sözlər**: Xalq musiqisi, muğamlar, zərbi muğamlar, dəsgahlar.*

## Giriş

Qədim tarixə malik Azərbaycan xalqı öz zəngin incəsənəti, yüksək musiqi mədəniyyəti ilə daim dünya xalqlarının diqqətini cəlb etmişdir. Xalqımıza məxsus olan muğamlar, mahnılar, musiqi alətləri, xanəndə və sazəndələr haqqında məlumatlar bizə musiqimizin kökünü min-min illərin arxasında axtarmağa ixtiyar verir. Kim Nizaminin «Xəmsə»si, Məhsəti xanımın rübailəri, Nəsiminin, Xəqaninin, Füzulinin qəzəlləri ilə tanış deyil? Səfiəddin Urməvi, Əbdülqadir Marağı, Mir Mövsüm Nəvvabın adını eşitməyib? Kim Üzeyir musiqisinin sehri ilə əfsunlanmayıb? Azərbaycan xalqı özünün məhşur muğam ustaları, tarzənləri ilə haqlı olaraq fəxr edir. Sadıqcan Əsəd oğlu, Qarabağlı Zeynal, Şirin Axundov, Qurban Pirimov, Mənsur Mənsurov kimi ustad çalğıçıların adları bu gün də hörmətlə yad edilir, sənətkarlıqları yüksək qiymətləndirilir. Azərbaycan xalq musiqisi məzmunca dərin, janr etibarilə rəngarəngdir.

## Əsas təhlil

Musiqi nədir? Bu sual əsrlər boyu insanları düşündürmüşdür. Musiqi həyatımızın ayrılmaz hissəsidir. Çoxəsrlik tarixə malik zəngin Azərbaycan musiqisini üç böyük janra bölmək olar:

1.Azərbaycan xalq mahnıları, aşıq musiqisi (zəhmət-əmək mərasim mahnıları, qəhrəmanlıq mahnıları, uşaq mahnıları) Aşıq sənəti Azərbaycan xalqının tükənməz milli-mənəvi sərvətlərindən biridir. Aşıq sənətinin qədim kökləri şifahi xalq ədəbiyyatına, xalq yaradıcılığına gedib çıxır. Onun əsas bayatılardan, xalq məsəllərindən qaynaqlanır. Dastan-aşıq poeziyasının ən mürəkkəb və bitkin janrıdır. Azərbaycan dastanlarının ilk böyük abidəsi "Dədə Qorqud"dur. Aşıq sənətinin ən böyük saz və söz bilicisi ustad aşıqlardır. Onlar folkloru, xalq yaradıcılığını mükəmməl bilir, həm şeir (divani, gəraylı, qoşma, təcnis, müxəmməs) yazır, həm də musiqi bəstələyir, eyni zamanda oxuyur və rəqs edirlər. Ustad aşıqlar xalq dastanlarının yaradıcılarıdır. Şairliyi və fərdi yaradıcılığı olmasa da yaxşı saz çalmaq və oxumaq qabiliyyəti olan aşıqlar ifaçı aşıqlardır. Aşıq yaradıcılığının poetik nümunələrini yaradanlar isə el şairləri, daha doğrusu aşıq şairləridir.

Azərbaycan xalq mahnıları-el musiqiçiləri, xanəndələr tərəfindən yaradılır. Xalq mahnılarının mətnləri əsasən bayatılardır. Bu növ mahnılarda bəzən mətnin müəllifi xanəndənin özü olur. «Qəmərim», «Ay qara qız», «Şuşanın dağları», «Ay qəşəng ceyran» və s. xalq mahnılarının musiqisi və sözləri məşhur xanəndəmiz Xan Şuşinskinindir. Azərbaycan xalq mahnılarının böyük bir qismi xalq qəhrəmanlarına - Koroğlu, Həcər, Nigar, Qatır Məmməd, Qaçaq Nəbiyə və s. həsr olunmuş ma hnılardır.

Azərbaycan xalq mahnı yaradıcılığının ən qədim janrlarından biri də laylalardır. Layla janrı bir çox dünya xalqlarının musiqi folklorunda mövcuddur. Bir qayda olaraq laylalar qadınlar (analar, nənələr) tərəfindən oxunmuşdur. Anaların beşik başında oxuduğu laylaların melodiyası həzin xarakterli, mətni isə çox halda yeddi hecalı quruluşa malik bayatılardan olur.

2. Milli rəqslər: Azərbaycan xalqının qədim kökləri olan müxtəlif məzmunlu və xarakterli xalq rəqsləri mövcuddur. Bu rəqslərin hər birində xalqın xüsusiyyətlərini nümayiş etdirən musiqi obrazları vardır. «Yallı», «Halay», «Pəhləvani», «Zorxana» və s. Azərbaycan xalq rəqslərini məzmununa görə təsnif etmək olar. Yer adları ilə, flora və fauna ilə, bayram və el şənlikləri ilə, qadın və kişi adları ilə, tayfa adları ilə, rəqəmlərlə əlaqədar və məzəli rəqslər. Qədim Odlar yurdunun tarixinin müxtəlif zamanlarında yaranmış bu rəqslər müasir dövrdə də el bayramlarında, toylarda istifadə olunur. Bəstəkarlarımız xalq rəqs melodiyalarından öz ciddi janrli və lirik məzmunlu əsərlərində istifadə

edir. Üzeyir Hacıbəyli «O olmasın, bu olsun» operettasında, «Uzundərə» rəqsindən, «Məşədi İbadın mahnısında», Əfrasiyab Bədəlbəyli ilk milli balet «Qız qalası» əsərində «Tərəkəmə», «Cığcığa» və s. rəqslərdən istifadə etmişdir. Maestro Niyazi, Tofiq Quliyev və Oqtay Rəcəbov simfonik orkestr üçün «Qaytağı» rəqsini yazmışdır. Bu rəqs özündə cəsarət, mübarizlik, cəngavərlik əhval ruhiyyəsi əks etdirir. Cəld tempə malik bu musiqi nümunəsinin tarənələri altında əsasən gənc oğlanlar rəqs edirlər.
3. Azərbaycan muğamları: «Rast», «Şur», «Segah», «Çahargah», «Bayatı-Şiraz», «Hümayun», «Şüştər». Azərbaycan musiqisində yeddi əsas lad yəni yeddi əsas muğam vardır. Bundan əlavə doqquz zərbi-muğam yaxud ritmik muğam da vardır. “Heyratı”, “Simayi-şəms”, “Mənsuriyyə”, “Arazbarı”, “Heydəri”, “Mani», «Ovşarı”, “Qarabağ şikəstəsi”, «Kəsmə şikəstə». Zəngin musiqi irsimizin misilsiz zirvəsi olan Azərbaycan muğamları dünya musiqi mədəniyyətinin qızıl səhifəsinə düşən parlaq musiqi nümunələridir. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli milli musiqimizin tədqiqində son dərəcə böyük əhəmiyyət kəsb edən “Azərbaycan xalq musiqisinin əsasları” adlı elmi əsərində yeddi iri həcmli muğam və doqquz zərbi-muğam olduğunu vurğulamışdır. Zaman keçdikcə ecazkar zirvələri fəth etmiş bu yeddi klassik muğam xalq sənətkarları tərəfindən cilalanaraq xalqımızın unudulmaz tarixinə çevrilmişdir. Azərbaycan muğamları adətən dəsgah formasında ifa edilir. Yəni muğamın şöbələri, guşələri, rənglər, təsniflər, dəramədlər müəyyən sistem əsasında öz əksini tapır. Klassik muğamlar ifa xüsusiyyətlərinə görə iki qrupa bölünür:

a) instrumental muğamlar

b) vokal-instrumental muğamlar.

Bu muğamların oxşar və fərqli cəhətləri vardır. Əsasən şöbələrin adları eynidir, eyni musiqi intanasiyaları ilə ifa edilir. Fərqli cəhətləri isə əsasən muğam xanəndə tərəfindən ifa edilir, tar-kamança və ya ansambl, orkestr tərəfindən müşayiət edilir, mütləq şəkildə Azərbaycan qəzəllərindən istifadə edilir. Xanəndə böyük şöbələr arasında təsniflər oxuyur, kiçik şöbələr arasında diringə və rənglər çalınır. Vokal instrumental muğamlarda qəzəllərdən istifadə olunur. Instrumental muğamlar isə yalnız Azərbaycan xalq çalğı alətlərinin ifasında səslənir. Klassik muğamlardan fərqli olaraq zərbi muğamlar yalnız vokal-instrumental formada ifa edilir. Klassik qəzəllərdən savayı aşıq şeir nümunələri: qoşma və bayatılardan da istifadə edilir.

Azərbaycan xalq musiqi nümunələri bəstəkarlarımızın yaradıcılığında mühüm əhəmiyyət kəsb edir. XX əsr dünya şöhrərətli Azərbaycan bəstəkarı Fikrət Əmirov dünyada ilk dəfə «simfonik muğam» janrını yaradaraq «Şur», «Kürd Ovşarı» «Gülüstan bayatı şiraz» kimi dəyərli əsərlərini, Azərbaycan musiqisini dünyanın müxtəlif qitələrində səsləndirən dünyaşöhrətli dirijor bəstəkar Niyazi «Rast» simfonik muğamını dünya musiqi mədəniyyətinə bəxş etmişlər. XX əsr dünya caz musiqisi salnaməsinin dahi nümayəndələrindən biri caz ənənələrini Azərbaycan muğam sənəti ilə əlaqələndirən caz-muğam janrının yaradıcısı Vaqif Mustafazadə 1978-ci ildə Monakoda keçirilən beynəlxalq caz festivalında ən yüksək mükafata layiq görülmüşdür. Azərbaycan musiqisi dünya musiqi mədəniyyətinin ayrılmaz bir parçasıdır. Zaman keçdikcə klassik muğamlar xalq sənətkarları tərəfindən cilalanaraq genişlənmiş və yeddi əsas muğam silsiləsinə əlavə muğamlar daxil olmuş, bu da muğamın zəngin xəzinəsinə və milli musiqimizin unudulmayan tarixinə çevrilmişdir. Notların sayı yeddi, həftə günlərinin sayı yeddi, muğamların sayının yeddi olması onlar arasında uyğunluğun olmasını göstərir. Burdan elə bir fəlsəfi harmoniya yaranır ki, həftə günlərinin hər biri bir muğamla əlaqədardır.

**Nəticə**

Dünya şöhrətli bəstəkar, görkəmli musiqişünas-alim, publisist, pedaqoq və ictimai xadim, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəyli yaradıcılığında bir-birindən gözəl musiqi nümunələrinə rast gəlmək olar. Bəstəkar “Leyli və Məcnun” operasında məhz yeddi klassik muğamdan və “Heyratı” zərbi muğamından istifadə etmişdir. Muğamlarımızın xor kollektivi (akapella) tərəfindən ifa variantları da mövcuddur. Bəstəkar Nazim Əliverdibəyov “Bayatı-Şiraz” və bəstəkar Oktay Rəcəbov “Segah” muğamını işləmişdir. Eyni zamanda Nazim Əliverdibəyov “Bayatı-Şiraz” muğamını orqan aləti üçün işləyibdir. Azərbaycan muğamları 2008-ci ildən UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Azərbaycan bəstəkarları və ifaçıları dünyanın görkəmli mədəniyyət xadimləri sırasında fəxri yerlərini tuturlar. XX əsr Azərbaycan musiqisinin tarixində mühüm, əlamətdar bir mərhələdir. Məhz bu dövrdə ölkəmizdə yüksək peşəkarlığı ilə özünəməxsus obrazlar aləmi və orijinal musiqi üslubu ilə seçilən bəstəkarlar məktəbi yaranır. Azərbaycan xalq musiqisi beynəlxalq miqyasda tanınır. Bir sözlə, Azərbaycan musiqisi dünya professional musiqi mədəniyyətlərinin ümumi sisteminə qovuşur.

**ƏDƏBİYYAT**

1.Üzeyir Hacıbəyov. (Qulam Məmmədli, Rəşid Quliyev). Bakı, 1975-ci il.
2.Əhməd Bakıxanov. (Əvəz Rəhmətov «İşıq» Nəşriyyatı) 1977-ci il.
3.”Musiqi səmimiyyət məbədi” . Bakı, “Ayna Mətbu Evi” 2004.



***Azərbaycan Milli Konservatoriyası**
**«İnstrumental muğam» kafedrasının müəllimi***

**Oqtay Sherifov**


**AZERBAİJANİ FOLK MUSİC, MUGHAMS**


The presented article provides information on Azerbaijani folk music: songs, national dances and mainly Azerbaijani classical mughams, percussion mughams - their performance style, similar and different features.



**Keywords**: *Folk music, mughams, percussion mughams, dasgahs.*



**Огтай Шерифов**


**АЗЕРБАЙДЖАНСКАЯ НАРОДНАЯ МУЗЫКА, МУГАМЫ**


В представленной статье представлена информация об азербайджанской народной музыке: песнях, национальных танцах и преимущественно азербайджанских классических мугамах, ударных мугамах - их стиле исполнения, сходства и различия.



**Ключевые слова**: Народная музыка, мугамы, ударные мугамы, дасги.

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 12.10.2024**
**Son daxilolma tarixi:12.11.2024**